# Logistikanın inkişafı Azərbaycanın nüfuzunu daha da artıracaq

**Azərbaycanda son 17 il ərzində inkişaf edən infrastruktur sahələrindən biri kimi nəqliyyat sektoruna irihəcmli investisiyaların yönəldilməsi nəticəsində hava limanları, körpülər, tunellər və yol qovşaqlarının tikilməsi, yeni avtomobil və dəmir yollarının çəkilməsi, yenidən qurulması ilə bağlı mühüm işlər görülüb.**



Tranzit potensialının reallaşdırılması istiqamətində də irimiqyaslı layihələr həyata keçirilib, o cümlədən Avropa-Qafqaz-Asiya (TRASECA) nəqliyyat dəhlizinin fəaliyyəti güclənib, Bakı-Tbilisi-Qars dəmir yolu istismara verilib, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilib.

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 14-də Güləbird kəndində Azərbaycan bayrağını qaldırdıqdan sonra çıxış edərək, Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyəti barədə deyib: "Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edərək yüklər daşınmağa başlamışdır. Görün, biz nə qədər böyük uzaqgörənlik göstərmişdik, böyük iradə göstərmişdik. Eyni zamanda, maliyyə resurslarını səfərbər etmişdik və bu dəmir yolları bağlantılarını biz təmin edirik. Bu, ölkəmiz üçün lazımdır. Çünki bu, ölkəmizin geosiyasi əhəmiyyətini artırır, iqtisadi gücünü artırır. Çünki biz etibarlı tranzit ölkəsi kimi bundan böyük maliyyə gəliri əldə edəcəyik, eyni zamanda, bölgədə sabitliyin və sülhün təmin edilməsi üçün də bunun çox böyük əhəmiyyəti var".

Tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan, həm də ötən dövrdə digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı şərait yaradıb, daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasına nail olub.

İşğaldan azad edilən Qarabağ regionunun coğrafi mövqeyi, ərazidən Avropaya və Asiyaya çıxış imkanlarının artması isə Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya və dəhliz layihələrində bundan sonra daha fəal iştirakını gücləndirəcək. Bu hal Xəzər-Qara dəniz hövzəsinin və Cənubi Qafqazın strateji və etibarlı dövləti kimi ölkəmizin iqtisadi və siyasi nüfuzunu daha da artıracaq.

Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın fevralın 14-də işğaldan azad edilən ərazilərə budəfəki səfəri bir sıra mühüm işlərə start verilməsi və əhəmiyyətli layihələrin reallaşması ilə yadda qaldı. Dövlətimizin başçısı, ilk növbədə, Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu. Bu hadisənin əhəmiyyəti olduqca böyükdür. Bu dəmir yolu xətti nəinki bölgənin, həm də bütün regionun gələcək inkişafı üçün strateji əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev Güləbird kəndində Azərbaycan bayrağını qaldırdıqdan sonra etdiyi çıxışında deyib: "Bu gün Horadizdə Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyuldu. Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək".

Ölkə rəhbəri çıxışında daha sonra bu dəmir yolu infrastrukturunun Türkiyəyə qədər uzanacağı və bununla da respublikamızla qardaş ölkəni birləşdirən ikinci dəmir yolu şəbəkəsinin yaradılacağını diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan üç il yarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istismara verib. Böyük nailiyyət olan bu hadisə ilə tarixdə ilk dəfə Azərbaycan və Türkiyə dəmir yolu ilə birləşib. İndi isə ikinci dəmir yolunun çəkiləcəyi ilə bütün bölgə ölkələrinin bundan yararlanacağı qarşıya mühüm vəzifə kimi qoyulub.

Dövlətimizin başçısı Horadiz-Zəngilan-Ağbənd dəmir yolu istifadəyə veriləndən sonra bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfra endirilməsinə əminliyini ifadə edib. Eyni zamanda, bu dəmir yolunun digər nəqliyyat layihələrinin də reallaşdırılmasına mühüm təsir göstərəcəyini diqqətə çatdırıb: "Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər".

Yeri gəlmişkən, burada xarici ekspertlərin bir fikrini də xatırlatmaq istərdik. Bildirilir ki, Azərbaycan ikinci Qarabağ müharibəsindəki qələbəsi ilə Qərbə və Şərqə çıxışın qovşağında yerləşən və əzəli torpağı olan Qarabağı azad etməklə qonşu ölkələr sırasında özünün geosiyasi–geoiqtisadi kursunu bir qədər də dəqiqləşdirdi. Bununla da respublikamız həm Xəzər-Qara dəniz hövzəsində və Cənubi Qafqazda, həm də Orta Asiya və Yaxın Şərqdə məqsədyönlü geoiqtisadi fəaliyyət üçün əlverişli şərait yaratmalı oldu.

Beləliklə, Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti gələcəkdə Azərbaycandan keçməklə Cənubi Avropa ilə Asiyanı birləşdirən bir layihəyə çevriləcək. Bu da, öz növbəsində, Qarabağın gələcəkdə iqtisadi potensialına böyük töhfə verəcək, bu bölgədə tikinti-quruculuq layihələrinin reallaşdırılmasını sürətləndirəcək.

Ekspertlər bildirirlər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyünün təmin olunması Azərbaycanın dünyanın , eləcə də regionun ən cəlbedici ölkəsinə çevrilməsini gücləndirir. Dövlətimizin başçısı tərəfindən Füzuli rayonunda uzunluğu 100 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması isə daha bir regional nəqliyyat layihəsinin işə düşəcəyindən xəbər verir.

Azərbaycanın uzun illər təhlükəsiz tranzit ölkə kimi qazandığı nüfuz və maliyyə resursları da Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xəttinin uğurla reallaşdırılacağına imkanı verəcək. Digər tərəfdən, bu infrastruktur bütün Türk dünyasını birləşdirməklə yaxın gələcəkdə regionun türkdilli dövlətləri arasında dərin iqtisadi-siyasi birliyin qurulmasına və möhkəmlənməsinə də əsaslı təsir göstərəcək.

Ekspertlər, həmçinin qeyd edirlər ki, Azərbaycan regionda güclü potensiala sahib olan və tranzit əlaqələri təmin edən ölkədir. Bütün iqtisadi maraqlar Azərbaycanın ərazisində kəsişdiyinə görə, burada bütövlükdə regionun təhlükəsizliyi məsələsi önəm daşıyır. Ermənistanın bu cür münasibəti bütün region üçün təhdid deməkdir və bu yolu seçməklə növbəti dəfə öz dezinteqrasiyasının mənfi nəticələrini görəcək.

Ermənistanda artıq anlamalıdırlar ki, erməni faşizminin mövcud şəraitdə – regional maraqlar və təhlükəsizlik çərçivəsində bir daha baş qaldırması qeyri-mümkündür, belə addımların nəticəsi onlar üçün daha acınacaqlı ola bilər.

*V.BAYRAMOV,*
*"Xalq qəzeti"*